# O XAL NƏ XALDIR

**Allegretto**




– İrəvanda xal qalmadı,
O xal nə xaldır, üzə düzdürmüsən?
Şəkidə soltan qalmadı,
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır, üzə düzdürmüsən?
– Xal mənim, yar mənim –
Xalqa nə borcdur, üzə düzdürmüşəm,
Yarım deyibdir, qoşa düzdürmüşəm.

– İrəvanda mən işlərəm,
O xal nə xaldır, üzə düzdürmüsən?
Xəncəlimi gümüşlərəm,
O xal nə xaldır, üzə düzdürmüsən?
De görüm nə xaldır, üzə düzdürmüsən?
– Xal mənim, yar mənim –
Xalqa nə borcdur, üzə düzdürmüşəm,
Yarım deyibdir, qoşa düzdürmüşəm.